Baku 2015
1st EUROPEAN GAMES

# Fəxr et, qürur duy, AZƏRBAYCAN!




"Bakı-2015" I Avropa Oyunlarının dünyaya səs salması, ilk növbədə bu beynəlxalq idman yarışına Azərbaycanın ev sahibi kimi ciddi hazırlıqları ilə bağlıdır. Ölkəmizin idman tarixinə qızıl medallarla yazılan I Avropa Oyunlarının keçirildiyi günlərdə tələbə-gənclərin könüllü kimi bu təntənədə xidmət göstərmələri heç də təsadüfi deyil. Könüllülərin üzərinə düşən vəzifə şərəfli, həm də olduqca məsuliyyətlidir. Bir halda ki, bələdçisən, demək, çox şeyləri bilməli və təsdiq etməlisən. Şəhərimizin hər tərəfinə, xüsusən tarixi, mədəniyyət abidələri komplekslərinə səfərlərində oyunçuların və turistlərin xidmətində dayanmaq üçün könüllülər mütləq əcnəbi dillərdən, ən azı, bir-ikisini bilməlidir. Əlbəttə, dil bilmək, qonağa yol göstərmək nəinki vacib məsələdir, həm də qonaqpərvərliyin əsas şərtidir. Lakin məsələ bununla da bitmir. Könüllülər xalqımıza məxsus milli-mənəvi dəyərlər barədə geniş biliyə malik olmaları ilə də seçilirlər.

# Böyük multi-idman oyunlarında idmançılar yarışın ürəyi, könüllülər isə ruhu hesab olunurlar




I Avropa Oyunlarına start verilməmişdən öncə də paytaxtın küçə və meydanlarında könüllüləri görən hər kəs onlardan faydalanırdı. Oyunlar başlandıqdan sonra isə könüllüləri yarışların keçirildiyi idman arenalarına aparan yollarda daha çox görmək mümkündür. Yarışlarda iştirak edən idmançıların, eləcə də onların oyunlarını canlı izləməyə gəlmiş azarkeş və turistlərin paytaxt Bakı ilə yaxından tanış olmalarında könüllülərin daşıdığı missiyanın xüsusi önəmi var. Əsas məsələ və hədəf özümüzü olduğumuz kimi tanıtmaqdır. Bunun üçün isə tariximizi, mədəniyyətimizi və məişətimizi qonaqlara göstərməliyik.

"Bakı-2015" I Avropa Oyunları Əməliyyat Komitəsinin Əməliyyatlar üzrə baş direktoru Saymon Kleqin Oyunlara hazırlıq prosesində könüllülərlə bağlı fikirləri maraqlı olmuşdur: "İstənilən böyük multi-idman oyunlarında idmançılar yarışın ürəyi, könüllülər isə ruhu hesab olunurlar. "Alov Qoruyanlar" bu yay "Bakı-2015" I Avropa Oyunlarının möhtəşəm idman bayramına çevrilməsinə kömək göstərəcək və daimi bir irs yaradacaqlar. Bu irs sayəsində Azərbaycan gələcəkdə bir sıra böyük beynəlxalq yarışlara ev sahibliyi edən zaman könüllü atəşini alovlandıracaq. "Bakı- 2015"in könüllüləri idmançılara, rəsmi nümayəndələrə və izləyicilərə yardım etməklə I Avropa Oyunlarının yüksək səviyyədə ərsəyə gəlməsi üçün əvəzolunmaz rol oynayırlar'... Onlar I Avropa Oyunlarını məxsusi edən insanlardır. Bu gün onların həyəcanını görmək çox sevindiricidir. Mən əminəm ki, könüllülərimizin bu həyəcanı Oyunlar sona çatanadək davam edəcək. "Bakı-2015"in simaları kimi onların rolu bu tədbirin uğurlu keçməsi üçün olduqca vacibdir".

I Avropa Oyunları Əməliyyat Komitəsinin baş icraçı direktoru, gənclər və idman naziri Azad Rəhimov isə könüllülərə müraciətində bildirmişdir: "Sizin "Alov Qoruyanlar" proqramında iştirakınız sayəsində avropalı idmançılar mükəmməl yarışlar nümayiş etdirəcəklər. Siz həmçinin şövq, səmimiyyət və fədakarlığınızla Oyunların ab-havasını yüksəltməyə kömək edəcəksiniz".

Könüllülər Avropanın birinci multi-idman yarışlarına verdikləri töhfənin əvəzində - xidmətləri müqabilində yarış obyektlərinə pulsuz nəqliyyat xidməti ilə təmin olunur, geyim, qida və "Bakı-2015" I Avropa Oyunlarının könüllü proqramının rəsmi tərəfdaşı olan Nar Mobile tərəfindən verilən SIM kartdan yararlanırlar.

"Azerfon" MMC-nin baş icraçı direktoru Kent Maknili bildirmişdir ki, "Nar Mobile" könüllülərin Oyunların uğurlu keçməsinə töhfə vermələrində önəmli rol oynayır: "Biz "Bakı-2015" I Avropa Oyunlarını təşviq və beynəlxalq idman tədbirləri cədvəlinə daxil etməyə kömək edəcək, mobil proqram və cib təlimatı, o cümlədən maraqlı marketinq proqramı hazırlayacağıq".

Azərbaycan Gənclər Fondunun icraçı direktoru və "Bakı-2015" I Avropa Oyunları Təşkilat Komitəsinin üzvü Fərhad Hacıyev isə "I Avropa Oyunlarında iştirak etmək və bütün Avropanı Bakı şəhərində salamlamaq imkanı Azərbaycan xalqı üçün çox gözəl və önəmli bir fürsətdir"- demişdir.

Könüllülər müxtəlif qruplarda birləşib fəaliyyət göstərirlər. Onlardan biri də SABAH-lardır. Tələbə-gənclərin bu istiqamətdə fəaliyyətlərini tənzimləmək üçün mart ayından işə başlayan "SABAH-ın könüllüsü" proqramı tərtib olunub. Proqram tələbələrin akademik təhsildən ayrılmadan, sosial fəallığını artırmaq, biliklərinin təcrübədə tətbiqi, eləcə də idarəçilik bacarıqlarının və liderlik potensialının inkişaf etdirilməsi məqsədi daşıyır. Proqram çərçivəsində Təhsil Nazirliyinin SABAH qruplarındakı könüllülərin "Bakı-2015" I Avropa Oyunlarına dəstəyini nümayiş etdirmək məqsədilə "SABAHFest" adlı festival da keçirilib. SABAH qrupları ali təhsilin keyfiyyətinin yüksəldilməsi, müasir tələblərə uyğun kadr hazırlığının təmin edilməsi və bu sistemdə yeni mühitin yaradılması üçün Təhsil Nazirliyinin tabeliyində olan müəssisələrdəki savadlı, bacarıqlı və hazırlıqlı tələbələrdən təşkil edilib. SABAH-ın qrupları Bakı Dövlət Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Dövlət Pedaqoji Universiteti və Azərbaycan Dillər Universitetində 34 ixtisas üzrə təhsil alan tələbələri əhatə edir.



"Bakı-2015" I Avropa Oyunları Əməliyyat Komitəsi hələ hazırlıq dövründə könüllülərin "Alov Qoruyanlar" (Flamekeepers) kimi tanınacaqlarını elan etmişdir. Bu ad yarışların ruhunun təbliğində gənclərin rolu ilə yanaşı, Odlar yurduna məhəbbətini, xalqımızın həyəcanını və mehribanlığını da tərənnüm edir.

Könüllülər Oyunların keçirildiyi müddətdə idmançılara və rəsmi şəxslərə kömək edir, tamaşaçılara, ictimaiyyətə, əcnəbi qonaqlara, turistlərə və media nümayəndələrinə dəstək göstərirlər.

"IBC" ictimai təşkilatının könüllülərindən olan Nərminə Ələsgərova ixtisasca texnoloqdur. Bir neçə əcnəbi dil bilir. "Bakı-2015" I Avropa Oyunları başlanan gündən o da həmkarları ilə birlikdə könüllülərin sırasındadır: "I Avropa Oyunlarının keçirilmə müddətində ökəmizin ali məktəb və kollleclərindən 17 min 859 tələbə-gənc bu missiyaya qoşulub. Onlardan 5 min 612 nəfəri "Bakı-2015" I Avropa Oyunlarının açılış və bağlanış mərasimlərində, 12 min 247 nəfər əməliyyat könüllüsü isə digər tədbirlərdə iştirak edir. Tələbələrin I Avropa Oyunlarına dəstək məqsədilə fəaliyyətə cəlb edilməsi həm də respublikamızda könüllülük hərəkatının genişlənməsinə səbəb olub. Nəticələr ürəkaçan və yaddaqalandır. Oyunların maraqlı keçməsi üçün yaradılmış münbit zəmin də əsas rol oynayır. Rəngarəngliyi odur ki, burada 20 idman növü üzrə yarışlar keçirilir və nəticələr də ürəkaçandır. Azərbaycan idmançılarının zəfərləri isə xalqımızın və dövlətimizin tarixinə şərəflə yazılır. Bundan sonra da komandalarımıza və ayrı-ayrı idman növü üzrə yarışanlarımıza qələbələr - medallar arzulayırıq".



Samux rayonunun Sarıqamış kənd orta məktəbində xarici dil müəllimi işləyən Günel Məmmədova Mingəçevirdə keçirilən yarışların könüllülərindəndir. Yarışların keçirildiyi müddətdə könüllü olaraq bu mötəbər beynəlxalq idman bayramının iştirakçısı olmaqdan qürur duyduğunu bildirdi: "Vaxtilə gənclik şəhəri adlanan Mingəçevir həm də əcnəbilərin daha çox maraq göstərdiyi və üz tutduğu məkanlardandır. Turistlərimiz Boz dağın ətəyinə sığınan Mingəçevirin sakinlərinin qonaqpərvərliyindən doymadıqlarını gizlətmirdilər. Çalışdıq ki, yarış iştirakçıları da bu yerlərdən zəngin təəssüratlarla qayıtsınlar. İdmançılarımızın bir-birinin ardınca qazandığı qələbələrin "Zəfər günləri"ndə təm-təraqlı təqdimatlarının xüsusi önəmi vardır. Bu, Azərbaycan gəncliyinə, onun sağlamlığına və fiziki hazırlığına dövlət başçısının birbaşa diqqəti və qayğısıdır. Gənclərimiz də sağ olsunlar ki, bayrağımızı zirvələrdə, daha yüksəklərdə saxlayırlar. Azərbaycanın I Avropa Oyunları iştirakçısı olan dövlətlər sırasında 2-ci yerdə qərarlaşması qürurvericidir. I Avropa Oyunlarına ev sahibliyi edən dövlətimizlə qürur duyuram. Milli Olimpiya Komitəsnin assistenti kimi, Mingəcevir şəhərindəki yarışlarda idmançı və komanda rəhbərlərinə kömək edirdim. Həqiqətən, çox qürurverici hisslər yaşadım. Hər gün unuformamı geyinib yola çıxanda özümü lazımlı və gərəkli olduğumu hiss edirdim. Müxtəlif ölkələrdən gəlmiş idmancılara lazımi köməklik göstərirdik. Qazancımız həm də dünyanın müxtəlif ölkələrindən gəlmiş insanlarla dostluq münasibəti qurmaqdır. Xarici dil bilməyim məni də Vətənimə gərəkli edib. Bunu duymağın və sevincini yaşamağın özü xoşbəxtlikdir. Bu dillə ölkəmizi əcnəbilərə təqdim edirdik. Müxtəlif yaş həddində olan gənclərlə komanda şəklində işləyirdik. İşimizdən zövq alırdıq. Onu da deyim ki, Mingəçevir nəinki yarışların keçirildiyi bu tarixi və əlamətdar günlərdə, əslində, daim qonaq-qaralı olub".

I Avropa Oyunları bütövlükdə Azərbaycan üçün böyük əhəmiyyət daşıyır. Oyunların yüksək səviyyədə keçirilməsi, əlbəttə, ilk növbədə hazırlıqlardan, münbit zəmindən asılıdır. Tələbə-gənclərin bu xidməti həm də yaşından və sosial mənşəyindən asılı olmayaraq, onların könüllülük prinsipi əsasında yerinə yetirdikləri vətəndaşlıq borcudur.

***Məhəmməd NƏRİMANOĞLU,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***